# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 70

**Bakı şəhəri** „01" iyul 2011-ci il

**"Ahıl vətəndaşlara tibbi yardımın yaxşılaşdırılması barədə"**

Azərbaycan Respublikası Prezidentinin "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 17.04.2006-cı il tarixli 1413 nömrəli Sərəncamının icra vəziyyətinə dair Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən hazırlanmış arayışda qeyd olunan çatışmazlıqların aradan qaldırılması, ahıl vətəndaşlara tibbi yardımın yaxşılaşdırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikası Prezidentinin "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Respublikanın şəhər və rayonlarının tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, bu əmrin 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planının icrası təmin edilsin və görülmüş işlər barədə hər ilin sonunda Səhiyyə Nazirliyinə məlumat versinlər.

3. Əmrin icrasına nəzarət Nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
"01" 07 2011-ci il
tarixli 70 nömrəli Əmri ilə
təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Prezidentinin "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar**

## Tədbirlər planı

| № | Tədbirin adı | İcraçı | İcra müddəti |
|---|---|---|---|
| 1. | Respublikanın rayon və şəhər tibb müəssisələrinin nəzdində herontoloji kabinetlərin təşkil edilməsi | Respublikanın rayon və şəhər tibb idarə və müəssisələri | 2011-ci il |
| 2. | Ahıl vətəndaşların sağlamlığının qorunması məqsədilə yaşadıqları ərazi üzrə tibb müəssisələrində dispanser qeydiyyatına götürülməsi | Respublikanın rayon və şəhər tibb idarə və müəssisələri | Mütəmadi |
| 3. | Dispanser qeydiyyat götürülmüş ahıllara ildə iki dəfədən az olmayaraq tam həcmdə müayinələrin aparılması | Respublikanın rayon və şəhər tibb idarə və müəssisələri | Mütəmadi |
| 4. | Qocalar və əlillər evlərində yaşayan ahıllara ixtisaslaşdırılmış klinikaların mütəxəssisləri tərəfindən müayinələrin keçirilməsi | Respublikanın ixtisaslaşdırılmış tibb müəssisələri | rübdə bir dəfə |
| 5. | Ahıl vətəndaşlara müalicə-reabilitasiya tədbirlərin həyata keçirilməsi | Səhiyyə Nazirliyinin ET Bərpa İnstitutu, Respublikanın rayon və şəhər tibb idarə və müəssisələri | Mütəmadi |
| 6. | Ahıl vətəndaşlar üçün tibbi xidmətinin təşkili ilə əlaqədar standartlarının hazırlanması | Səhiyyə Nazirliyinin İctimai səhiyyə və İslahatlar Mərkəzi | 2011-ci il |
| **7.** | Herontologiya üzrə müvafiq tədris kurslarının təşkil edilməsi | Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə | 2011-ci il |

| | | | |
|---|---|---|---|
| | | İnstitutu | |
| 8. | Ahıllar üçün ixtisaslaşdırılmış psixoloji tibbi xidmətlərin təşkili | Bakı şəhəri "Sağlamlıq zonası" | Mütəmadi |
| 9. | Ahıl vətəndaşlara idman-sağlamlıq tədbirlərinin həyata keçirilməsi üçün xüsusi təlimatın hazırlanması | Səhiyyə Nazirliyinin ET Bərpa İnstitutu | 2011-ci il |
| 10. | Ahıl yaşlarında xəstəliklərin və əlilliyin yaranmasına səbəb olan sosial-iqtisadi, ekoloji və fizioloji amillərin öyrənilməsinə dair tədqiqatların aparılması | Səhiyyə Nazirliyinin ET Bərpa İnstitutu, ET Tibbi Profilaktika İnstitutu | Mütəmadi |
| 11. | Ahıllara sosial xidmət göstərən müəssisələrdə sanitariya-gigiyena tələblərinə əməl olunmasına nəzarət | Ərazi gigiyena və epidemiologiya mərkəzləri | Mütəmadi |